# “Təbiəti sevək” mövzusunda rəsm müsabiqəsi

Bakı şəhəri Nizami Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində dərnək üzvləri arasında ekoloji təfəkkürü formalaşdırmaq, onlara sağlam həyat tərzi aşılamaq, ətraf mühitin mühafizəsini təmin etmək məqsədilə ötən ay “Ekologiya ayı” elan olunub. “Ekologiya ayı” çərçivəsində “Rəsm” dərnəyinin üzvləri arasında “Təbiəti sevək” mövzusunda rəsm müsabiqəsi təşkil edilib. Mərkəz üzrə iməciliklər keçirilib, təmizlik-abadlıq işləri aparılıb. Məşğələ otaqlarında dibçəklərə dekorativ güllər əkilib. Maraqlı tədbirlərdən biri də “Ən səliqəli və təmiz otaq” adlı baxış-müsabiqə olub. Komissiya üzvləri otaqlara baxış keçirib, qaliblərə hədiyyələr təqdim olunub.



Mərkəzin azyaşlı uşaqları arasında “Mən təbiəti necə qoruyuram” adlı oyun-viktorinalar təşkil edilib, ekologiya mövzusunda sual-cavab aparılıb, müxtəlif tapmacalar, oyunlar keçirilib. Uşaqlar təbiət mövzusunda göstərilən slayda böyük maraqla baxıblar.

Beynəlxalq Yer Kürəsi Günü münasibətilə “Gənc səyahətçilər” dərnəyinin üzvləri Beşbarmağa ekskursiya edib, əyləncəli yarış keçirib və ekoloji aksiya təşkil edərək ətraf sahəni tullantılardan təmizləyiblər. Digər dərnəklərin üzvləri isə “Xəzərimizi qoruyaq” devizi altında ekoloji aksiya keçirərək dəniz kənarında təmizlik işləri aparıblar.

Dərnək məşğələlərində “Təbiətimizi qoruyaq” mövzusunda söhbətlər aparılıb, dərnək üzvlərinə “Ekologiya nədir?” mövzusunda ətraflı məlumat verilib.

Dərnək üzvləri “Hər kağızı bir yarpağa dəyişək” devizi altında keçirilən layihədə iştirak edərək 117 kiloqram kağız tullantısı yığıb məntəqəyə təhvil veriblər.

“Ekologiya ayı” çərçivəsində dərnək üzvləri Zooparkda, Botanika Bağı və Dendraparkda ekskursiyada olub, bitki və heyvanat aləmi ilə yaxından tanış olublar.